BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№4 Humanitar elmlər seriyası 2006

# VİLHELM DİLTEYİN HERMENEVTİKASI HUMANİTAR ELMİN METODU KİMİ

**A.Ə.HACIYEVA**
*AMEA, Fəlsəfə və Siyasi-hüquqi Tədqiqatlar İnstitutu*

Qədim dövrdən indiyə qədər bir metod və fəlsəfə кimi hermenevtiкanın кeçmiş mədəni-tarixi irsin anlamı və şərhi ilə bağlı olan bir çox məşhur кonsepsiyaları yaranmışdır. Onlardan birinin müəllifi mədəniyyət tarixçisi və filosofu, «həyat fəlsəfəsinin» görкəmli nümayəndəsi, «ruh tarixi» məкtəbinin banisi Vilhelm Dilteydir (1833-1911). Əsərləri fəlsəfə, tarix, etiкa, estetiкa, pedaqogiкa və ümumiyyətlə, humanitar biliyin ən müxtəlif sahələrini əhatə edən mütəfəккiri «Qərbin sonuncu dahi filosofu», «XX əsrin Hegeli» adlandırırdılar. Onun «həyat fəlsəfəsi», «tarixi zəкanın tənqidi», dünyagörüşü tipləri haqqında təlimi, o cümlədən hermenevtiкa nəzəriyyəsi XX əsrdə Qərb fəlsəfəsinə və sosiologiyasına, xüsusilə eкzistensializmə, fəlsəfi antropologiyaya və tarix elminə güclü təsir göstərmişdir.

V.Diltey hermenevtiкa ənənələrini özünün həyat fəlsəfəsi çərçivəsində inкişaf etdirərəк nəzəri cəhətdən zənginləşdirmişdir. Əgər Şleeyermaxer linqvistiк anlamın prinsiplərini işləyib hazırlamışdısa, Diltey hermenevtiкanın tətbiq sahəsini genişləndirərəк, onu *tarix metoduna və ruh haqqında elmlərin idraк nəzəriyyəsinə* çevirmişdir. Başqa sözlərlə desəк, o, hermenevtiкadan insan fiкrinin, incəsənətin, qanunların, mədəniyyətin, yəni xalqların mənəvi irsində əкsini tapmış insan ruhu təcəssümlərinin anlamı ilə əlaqəsi olan bütün humanitar elmlərin metodoloji əsası кimi istifadə edir.

Filosof, elmləri təbiət və ruh haqqında elmlər adlandırdığı humanitar elmlərə ayırıraraq yazır: «Elm anlayışı altında mənəvi hadisələrin məcmusu adətən iкi hissəyə bölünür: biri təbiət haqqında elmlər adlanır, o biri üçün, qəribədir кi, hamının qəbul etdiyi bir ifadə mövcud deyil. Mən intelleкtual qlobusun bu iкinci yarımкürəsini ruh haqqında elmlər adlandıran mütəfəккirlərə qoşuluram» (4, 114) . Dilteyin fəlsəfəsi insan idraкının bu iкi sahəsini təcəssüm edən dixotomiyasına əsaslanır.

Yeri gəlmişкən, Dilteydən səккiz əsr əvvəl Əbu Hamid əl-Qəzali elmləri dinə münasibətinə görə fərqləndirərəк, bir növ təbiət elmlərini humanitar elmlərdən ayırırdı. Onun fiкrincə, o zaman hesab, həndəsə və astronomiyanın daxil olduğu riyaziyyatın, həmçinin məntiqin «dinlə nə onun inкarı, nə də təsdiqi mənasında heç bir əlaqəsi» yoxdur. Laкin həmin elm sahələrində biliкlərin öz-özlüyündə səhihliyi onların dinə aid biliкlərinin də həqiqi olması fiкrini doğura bilməsi, onu narahat edirdi. Belə кi, məntiqi öyrənən və onun aydın olduğunu görüb, bu elmə rəğbətlə yanaşan hər hansı bir şəxs məntiqçilərin кüfrlərinin bu cür dəlillərlə

möhkəmləndirildiyini düşünüb, onların düzgünlüyünə inanar, «metafizikaya çatmamış... kafir olmağa tələsər» (bax: 2, 544-545). Əslində əl-Qəzali üçün dəqiq elmlərin verdiyi bilik mənəvi anlayış kimi başa düşdüyü həqiqətlə eyni deyil. Bu məqam Dilteyin mülahizələrinə də xasdır.

Belə ki, Dilteyin fikrincə, təbiət və ruh haqqında elmlər arasındakı fərqlər həmin elmlərin predmetləri arasındakı fərqlərdən irəli gəlir və təcrübə formalarının, idrak üsullarının özünəməxsusluğunda özünü büruzə verir. Dilteyə görə təbiət elmlərinin predmeti təbiətdir, təbiətdə isə kor-koranə, şüursuz qüvvələr hökm sürür, niyyətli, məqsədli, qabaqcadan düşünülmüş fəaliyyət yoxdur. İnsan üçün yad, «xarici» gerçəklik olan təbiət heç bir məna daşımır. Təbiət hadisələri dəfələrlə eyni şəkildə təkrarlandığından onları eksperimentdən hasil etmək mümkün olduğu üçün, təbii-elmi anlamda həmişə əsas diqqət izah etməyə, yəni səbəbləri tapmağa yetirilir. Ona görə təbiətşünaslığın metodu yalnız izahdır, yəni o, ayrı-ayrı konkret faktları sintez etməklə, aralarında ümumi cəhətləri müəyyən sxem və qanunlara daxil etməklə məşğuldur. Anlamı isə Diltey ruh haqqında elmlərin metodu hesab edir, həmin elmlərə tarix, siyasi iqtisad, hüquq, ilahiyyat, ədəbiyyat və poeziyanı, memarlıq tarixini, fəlsəfi dünyagörüşləri, sistemləri və psixologiyanı daxil edir. Çünki həmin elmlərin predmeti tarixi-sosial gerçəklikdir, *insandır.* Dilteyə görə iradə müstəqilliyi, əməl-hərəkətlərinə cavabdehlik hissi, hər şeyi öz düşüncəsinə tabe etməsi və şəxsiyyətinin alınmaz qalasından qarşısındakılara müqavimət göstərmək qabiliyyəti insanı bütün təbiətdən ayırır. Tarixi faktlar hiss-duyğulara, zəkaya və iradəyə malik insanların subyektiv məqsəd, niyyət, şüurlu fəaliyyəti ilə bağlı olduğundan təkrarolunmazdır, fərdidir, unikaldır. Təbiətdən fərqli olaraq, tarixi dünyanı insan sevgi və nifrət, sevinc və kədər, bir sözlə, bütün affektlərinin oyunu ilə seyr edir. İntuitiv nüfuzetməyə əsaslanan anlam subyektiv məqsədlər və fərdi motivlərlə şərtlənmiş sosial-tarixi proseslərin, fərdi və unikal hadisələrin dərk edilməsinə imkan verir.

Ruh haqqında elmlərin metodu anlam və xarici təcrübə, əqlin qurucu fəaliyyəti ilə bağlı olan təbiət elmlərinin izah metodu arasındakı bu qarşıdurma Dilteyin məşhur: «Təbiəti biz izah edirik, ruhi həyatı biz anlayırıq» kəlamında əksini tapmışdır (7, 8). Bu sözlərdə, haqq olsa da, aydındır ki, anlam ilə izahın bu cür qəti şəkildə qarşı-qarşıya qoyulması düzgün deyil. Doğrudur, alim təbiət elmlərinin idraki əhəmiyyətini tamamilə inkar etmir. Lakin dərketmədə onlara nisbətən ruh haqqında (humanitar) elmlərə üstünlük verir və göstərir ki, «onların predmeti hissi verilən hadisə, gerçəkliyin şüurda çılpaq refleksiyası deyil, məhz bilavasitə daxili gerçəkliyin özüdür». Başqa sözlə, Dilteyə görə təbii-elmi biliklər yalnız xarici təcrübə ilə əlaqədardırsa, ruh haqqında elmlər daxili təcrübə, özünüdərketmə ilə, yəni insanın doğma mühiti ilə məşğuldur. Burada idrakın subyekti ilə obyekti üst-üstə düşür. Ona görə filosof tədqiqatçının «son məqsədi»ni, xüsusini, fərdini, yəni «həyat vahidi», «psixoloji tam» adlandırdığı insanı, şəxsiyyəti anlamaqda görür, «... axı dünya belə fərdin təsəvvürlərindən savayı heç yerdə mövcud deyil» (4, 130). Bu mənada Spinozanın fərdi olanı ən ümuminin məhdudlaşdırılmasının nəticəsi kimi nəzərdən keçirən «*omnis determinatio est neqatio*», yəni «hər cür tərif inkardır» tezisi ilə razılaşmır (4, 128). Əksinə o, həmişə ümumidən deyil, məhz fərdi, unikal, «tarixi» olanın təcrübəsindən çıxış etməyi vacib bilir. Bu təcrübə, yəni başqa-

sının, özgənin həyatı, təcrübəsi «duyğularla verilən təzahürlərdə», xüsusən «yazıda təsbit olunmuş təzahürlərdə» əksini tapır. Bunlar fərdi intuitiv duyma, hissi şəriklik vasitəsilə insanın subyektiv motivlərinə, təsəvvürlərinə, mənəvi aləminə nüfuz etməklə anlanılır, hermenevtik təfsirlə başa çatır. Beləliklə, daxili təcrübəni, daxili gerçəkliyi və ya həyatı necə varsa eləcə, olduğu kimi anlamaqda filosofun spesifik idrak sahəsi, «plastik anlam» haqqında elm (9, 12) hesab etdiyi hermenevtika, təfsir sənəti köməyə gəlir.

Diltey «Hermenevtikanın meydana gəlməsi» məqaləsində yazırdı: «İnsanın daxili aləminin tam, mükəmməl və obyektiv ifadəsini yalnız dildə tapması faktı bizim mənəvi həyatı və tarixi dərk etməyimizdə müstəsna dərəcədə böyük əhəmiyyətə malikdir» (8, 86-87). Bu baxımdan əgər Şleyermaxer başqasının *bir neçə yüz əsr əvvəl yaşamış olsa belə* dərkini bilavasitə öz müasiri ilə canlı ünsiyyətdə görürsə, Diltey üçün başqası mədəniyyət tarixinə müraciət edildikdə daha dolğun qavranılır, çünki mədəniyyət tarixi həyatın yazılı təsbiti sahəsidir.

Diltey üçün hermenevtika mətnin sadəcə təfsiri deyil, filoloji şərh və təfsirdən fərqli olaraq, hermenevtik təfsir insanın *daxili*, *mənəvi həyatının* onun əsərlərində və digər mədəni-tarixi fəaliyyətində necə ifadə olunduğunu göstərməkdir. Diltey yazır: «Daşda, mərmərdə, musiqi səslərində, sözlərdə, xətdə, əməllərdə, təsərrüfat qaydalarında və əhval-ruhiyyələrdə yaşayan insan ruhu bizi çağırır və təfsir olunmağı (anlanmağı — A.H.) tələb edir. Əgər mən Leonardonu anlamaq istəyirəmsə, bu anlam eyni zamanda vahid homogen prosesdə birləşmiş əməllərin, tabloların, obrazların və əsərlərin təfsiri ilə müşayiət olunur» (3, 105).

Fərdin fikirləri öz təcəssümünü sosial tarixi dünyada, incəsənətdə, dində, hüquqda, siyasətdə, dildə, hətta jestlərdə tapır. Bu mənada o, mütəfəkkiri, yaradıcı şəxsi anlamaq üçün əlyazmaların rolunu yüksək qiymətləndirmişdir. O, bu fikirdədir ki, «Tamamlanmış kitab özünün yaranma sirri haqqında çox az məlumat verir». Ona görə belə hesab edirdi ki, müəllifin yaradıcılıq prosesindəki «planları, eskizləri, layihələri, məktubları, həmçinin rəsmləri hazır tablodan daha çox deyə bilər...» (6, 128). Diltey görə fəlsəfə tarixinin tədqiqatçısı bitkin fəlsəfi sistemlərin təhlilindən daha çox onların formalaşdığı kontekstə və prosesə əsaslanmalıdır. Təkcə hazır mətnlərin çap olunması azdır, həm də mütəfəkkirin salamat qalmış əlyazmaları, onların çoxsaylı fraqmentləri-qaralamaları və şəxsi məktublaşmaları toplanıb nəşr olunmalı, onların şəxsi arxivləri yaradılmalıdır. O göstərirdi ki, mütəfəkkirin yaşayıb yaratdığı mənəvi mühitin bərpa edilməsi *onu özündən də* (kursiv — A.H.) yaxşı anlamağa imkan verir. Bu baxımdan Diltey tarixi şəxsiyyətlərin tərcümeyi-halının yazılmasını da əhəmiyyətli sayır. Onun fikrincə, avtobioqrafiya özün-özünü anlamaqdır. Avtobioqrafiya və ümumdünya tarixi arasında həlqə kimi başa düşdüyü bioqrafiya isə fərdin və ümuminin əlaqə-vəhdətini əks etdirdiyinə görə bir çox cəhətdən onlara nisbətən daha mükəmməl tarixi janrdır. Tərcümeyi-hal öz saflığında, dolğunluğunda və bilavasitə gerçəkliyində əsas tarixi faktı söyləyir və yalnız tarixi belə həyat vahidlərindən quraşdıra bilən tarixçi zümrələrin, ictimai təsisatların, dövrlərin anlamına yaxınlaşa bilər (4, 134).

Bütün bu mülahizələrini Diltey ikicildlik «Şleyermaxerin həyatı»,

«Gənc Hegelin tarixi» əsərlərində əyani surətdə həyata keçirmiş, Almaniyada dövrün mənəvi həyatının böyük hərəkatları: maarifçilik, idealizm, romantizm fonunda, mənəvi mühiti və konteksti bərpa etməklə dahi filosofları anlamağın gözəl təfsir nümunəsini yaratmışdır.

Dilteyin fəlsəfəsində tarixilik ən mühüm fəlsəfi-metodoloji problemdir. O, tarixiliyin mahiyyətini relyativlik və ümum üçün əhəmiyyətliliyin antinomiyası kimi təsəvvür edir: bir tərəfdən hər cür biliyi (o cümlədən fəlsəfi sistemləri, konsepsiyaları, mətnlərdə təmsil olunmuş mənəvi irsi və i.a.) ) müəyyən tarixi şərait doğurur, digər tərəfdən hər bir bilik sistemi obyektivliyini və ümum üçün əhəmiyyətliliyini və deməli, tarix üzərində və ondan kənarda durduğunu iddia edir. Dilteyə görə bu ziddiyyəti «tarixin özünü mənalandırması» ilə həll etmək olar. Fəlsəfə müxtəlif dünyagörüşləri öz obyektinə çevirməli, onları şərtləndirən tarixlə, onları yaradan həyatla əlaqələndirməklə təhlil etməlidir. «Tarix baş tutmuş həyatdır. Həyat mümkün olan tarixdir» deyən filosofa görə insanın nə olduğunu öz üzərində refleksiya yolu ilə və hətta psixoloji eksperimentlər vasitəsilə yox, yalnız tarixdən öyrənmək olar. Əslində Diltey insanın mənəvi həyatını mövcudluğunun obyektiv şərtləri ilə əlaqələndirməsə də, hermenevtik təhlildə tarixi aspektə xüsusi diqqət yetirirdi. O, «ruhun» müstəqilliyindən bəhs edərkən, təkcə ayrıca fərdin «ruhunun» deyil, bütöv cəmiyyət təsisatlarının «ruhunun» da tarixi səciyyə daşıdığını israr edirdi. Hər hansı dövrdə yaşayan insanların ümumi və oxşar dini etiqadlara, təsəvvürlərə, dəyərlərə malik olması nöqteyi-nəzərdən daxilən vəhdətdə olan mədəni sistemlərin fərdiliyini, təkrarolunmazlığını göstərərək, Antik dövrün «ruhunu» və Orta əsrlərin «ruhunu», protestantizm, maarifçilik, klassisizm və yaxud romantizm «ruhunu» bir-birindən fərqləndirir. Fərdin özünü isə o, mövcudluğu ilə bağlı olduğu müxtəlif mədəni sistemlərin, təsisatların «kəsişmə nöqtəsi» hesab edir. Bununla da romantiklərin ardınca Diltey tarixi idrakı incəsənətə yaxınlaşdırır, tarixi qurumların bütövlüyünü tarixi şəxsiyyət bütövlüyü prizmasından nəzərdən keçirir.

Filosof mətnin tamlığından onun hissələrinin və hissələrindən tamı anlamaq haqqında hermenevtik dairə prinsipini genişləndirir və tarix aləminə keçirir. O, təkcə mənbələri deyil, *tarixi gerçəkliyin özünü də anlanmalı olan mətn hesab edir* (Kursiv — A. H.) (1, 246). Onun üçün hermenevtika «tarixi şüurun universal mühitidir. Onun (tarixi şüur) üçün həqiqətin, ifadəni və ifadədə — həyatı anlamaqdan başqa digər dərki mövcud deyil. Çünki hər şey mətndir: «Sözlərin hərfləri kimi həyat və tarix mənaya malikdir»» (1, 292). Əsas məqsəd mətnin şifrini açmaqla mənanı üzə çıxarmaqdır.

Diltey «Ruh haqqında elmlərdə tarixi dünyanın strukturu» əsərində yazmışdır: «Həyatın özünəməxsusluğu təbiətə yad olan kateqoriyaların köməyi ilə dərk olunur... Məna, dəyər, məqsəd, inkişaf, ideal — belə kateqoriyalardır. Onlarda həyat proseslərinin qarşılıqlı əlaqəsi yalnız «məna» kateqoriyasının, məhz bütün tamın anlamı üçün həyatın ayrı-ayrı ünsürlərinin mənasının köməyi ilə qavranılır. Necə ki, bəşəriyyətin həyatında hər hansı bir mərhələ yalnız onun bütün qalanlardan asılılığının dərk olunduğu zaman anlanılır. Məna hər şeyi qavrayan kateqoriyadır, həyat onun sayəsində dərk olunur» (5, 132).

Lakin ümumi prinsip olan «hermenevtik dairə» adlanan anlam metodunun qəti dəyişməzliyi, daimiliyi əsas götürülsə də anlamın məz-

munu, mənası daim dəyişikliyə məruz qalır. Filosofun fikrinə görə hissə ilə tamın qarşılıqlı əlaqəsinin nəticəsində yaranan «məna» yalnız müəyyən nöqteyi-nəzərdən, müəyyən zamanda və müəyyən konkret tarixi situasiyada nəzərdən keçirilə bilər. Çoxcəhətli olduğu üçün məna qəti müəyyən olunmur və hər dəfə təfsirçi tərəfindən konkretləşdirilir. Mənanın dərki təfsirçinin özünün də daxil olduğu situasiyanın hissəsi olaraq kontekstdən əldə edilir və zaman etibarilə tarixən dəyişir. Beləliklə, Dilteyə görə hermenevtik dairə hər dəfə konkret mətn və konkret təfsirçi arasında yenidən qurulur. Bu zaman təfsirçi özünün də daxil olduğu həyat, tarixi təcrübə ilə mətn arasında vasitəçi kimi çıxış edir. «Hermenevtik dairə» daxilində baş verən anlamın özü Dilteyin öz sözləri ilə desək, «həmişə nisbi olur və heç vaxt başa çata bilməz». O, daim tarixi görüşün üfüqlərini genişləndirir və onu dəyişir, yeni şəklə salır (bax: 3, 150). Həyatın «son sirri» Dilteyi daim cəlb edir, ona can atır, onu aşkara çıxarmağa çalışır. Lakin başa düşür ki, *təfsirçi sirrə yalnız yaxınlaşa bilər, onu axıradək dərk edə bilməz.* Bu mənada onun üçün anlam «hermenevtikanın sonsuz problemi»dir.

Diltey təbiət elmlərində möhkəmlənmiş obyektivlik anlayışını ruh haqqında elmlər üçün saxlayır və hermenevtikanın köməyi ilə bu obyektivliyə nail olmaq istəyir. Təbii-elmi idrak ona ünvanlanmış suala cavab verərkən izah üçün gerçəkliyə (təbiətə) müraciət etdiyi kimi, ruh haqqında elmlərdə tədqiqatçı suallarını mətnlərə verir. Filosof üçün mətnlər mükəmməl adekvatlıq imkanına malikdir. Ənənənin tənqidi təhlili, faktların müəyyən edilməsi, toplanması, daha sonra tutuşdurulması, yoxlanması vasitəsilə obyektivlik əldə olunur (4, 27). Belə ki, onun fikrincə, subyektiv hisslərlə, dəyərləndirici mühakimələrlə, praktiki həyat davranışı istiqamətləri ilə qırılmaz surətdə bağlı olan hadisələrə müqayisə yolu ilə verilən qiymət obyektiv və ümum üçün əhəmiyyətli olur. Burada söhbət müxtəlif hermenevtik dəyərləndirici mühakimələrin müqayisəsindən gedir. Həmin dəyərləndirici mühakimələrin öz səviyyələrinə və ideya-dünyagörüşü nəticələrinə görə həmişə fərdi, subyektiv olaraq qalmasını filosof özü də etiraf edirdi. Bununla belə ümumi fəlsəfi metod kimi əsaslandırdığı hermenevtika vasitəsilə təbii elmlərdə olduğu kimi «ruh haqqında elmlər» sahəsində də elmiliyə, ciddi, konkret, dəqiq, səhih biliklərə can atması onun təliminin şübhəsiz məziyyətlərindəndir.

Dilteyin hermenevtika təlimində ziddiyyətli, məhdud cəhətlərin olduğu şəksizdir. Ona görə də onun tarix konsepsiyası skeptik relyativizm adlandırılmış (Husserl), psixoloji empirizmdə, «anlam» və «təəssürat»ı eyniləşdirməklə mühakimə qabiliyyətini «intuitiv hissə» müncər etdiyinə görə tənqid edilmiş (Rikkert, neokantçılar), psixoloji məhdudluğu (Şpet və b.) göstərilmişdir. Lakin Diltey yaradıcılığına daha obyektiv, diqqətli və həssas yanaşma məsələnin burada göründüyü qədər də sadə olmadığını göstərir. Təsadüfi deyil ki, Dilteyi relyativizmdə günahlandıran alman filosofu E.Husserl (1859-1939) sonralar onu diqqətlə oxumadığını və yaxşı anlamadığını etiraf etmişdir. O, Dilteyin «elmin hər hansı bir fəlsəfi nəzəriyyəsinin tarixi həyat kontekstində elmin genezisinin tədqiqinə girişmirsə, labüd olaraq birtərəfli və mücərrəd olduğunu aydınlaşdırmaqda ona kömək etdiyini» qeyd etmiş (10, 110), əsərlərini «dahiyanə uzaqgörənlik və fenomenologiyanın ilk pilləsi» kimi qiymətləndirmişdir. Q.Şpet, Q.Miş, K.O.Apel, F.Rodi və bir çox digər

tədqiqatçılar isə Dilteyin hermenevtika konsepsiyasının yalnız psixologizm ruhunda dəyərləndirilməsini səhv hesab edirlər. Məlumdur ki, mütəfəkkir elmi axtarışlarında istinad nöqtələrini bir neçə dəfə dəyişmiş, işlətdiyi istilah aparatını yeniləşdirmişdir. O, özündə hiss etdiyi anlam qaydalarının psixolojiləşdirilməsini aradan qaldırmağa çalışaraq, anlamın empatiya, hissi şəriklikə eyni olmadığını qeyd etmiş, anlanılan obyektin mədəni işarələrlə şərtləndiyindən onun dərkinin də birbaşa, vasitəsiz olmadığını nəzərə çarpdıraraq, anlamı həmişə ikinci, sonrakı bərpa, tarixi rekonstruksiya kimi qiymətləndirmişdir. Dilteyin xidməti hər şeydən əvvəl şüurun həyat və praktika ilə şərtlənməsini nümayiş etdirməsindədir: şüur özünü müəyyən etmir, o, lap əvvəldən «həyatla» və «tarixlə», yəni dərk edən fərdin konkret situasiyası, onun «tərcüme-yi-halı», son nəticədə ölkəsinin və dövrünün sosial-siyasi şərtləri ilə müəyyən olunur. Diltey üçün şüur haqqında xalis məntiq təlimi yaratmaq illüziyadan başqa bir şey deyil. Əvvəla, bu təkcə təfəkkürün əvvəlcədən sosio-mədəni kontekstə daxil olmasına görə yox, həm də təfəkkürün fəaliyyəti, ümumiyyətlə, müstəsna olaraq reflektiv-məntiqi baxımdan anlanıla bilmədiyinə görə belədir. Digər tərəfdən, subyektin obyektə münasibəti məntiqi-rasional mühakimələri nəzərdə tutsa da, burada həmişə əxlaqi-iradi məqam iştirak edir. Subyekt obyektə, yəni insan dünyaya əvvəlcədən, hələ onun haqqında düşünməmişdən qabaq müəyyən münasibətdə olur: sevir, nifrət edir, sevinir, kədərlənir, günahlandırır, qorxur, pərəstiş edir və i.a. Humanitar elmlərin təfsiredici fəaliyyətinə gəldikdə burada da məntiqi dərkə ehtiyac var, çünki anlam formaları xüsusi məntiqi ifadə formalarına malik olmalıdırlar. Lakin anlam problemi bununla məhdudlaşa bilməz. Əks halda humanitar elmlərin idrak prosesi öz predmetinə uyğun gəlməz, onu birtərəfli əks etdirərdi. Axı humanitar hadisələrdə obyektiv olaraq rasional anlamın köməyi ilə dərk olunan amillərlə yanaşı, mənəvi irsi yaradan müəlliflərin şüursuz fəaliyyəti ilə əlaqəli məqamlar da vardır. Bu isə ənənəvi olmayan məntiqin təsdiqinə aparıb çıxarır. Həmin fikirlər Dilteyin əsərlərində ardıcıl sistemli şərhini tapmasa da, tədqiqatçılara onun müstəqil hermenevtik məntiq təlimi haqqında danışmasına əsas vermiş, sonralar bu barədə mülahizələr filosoflar tərəfindən inkişaf etdirilmişdir.

Qeyd etmək lazımdır ki, əslində təbiət aləmini və mənəvi aləmi bir-birilə qarşılıqlı əlaqədə götürən Dilteyin predmetinə və tədqiqat metodunun özünəməxsusluğuna görə elmləri iki qrupa ayırması da nisbi, şərti xarakter daşıyır, bir növ onlar arasında münasibətin aydınlaşdırılmasına xidmət edir. O, özü də yaxşı başa düşürdü ki, bu bölgüyə yalnız metodoloji mühakimələr baxımından haqq qazandırmaq və yalnız düşüncədə müəyyən abstraksiyalar vasitəsilə həyata keçirmək olar. Real həyatda, praktikada bu dixotomiyanın ardıcıl tətbiqi imkan xaricindədir, özünün misal gətirdiyi ümumi dilçilik kimi «sərhəddə» yerləşən elə elmlər var ki, birmənalı şəkildə onları elmi idrakın bu iki sahəsindən hər hansı birinə aid etmək mümkün deyil. Əslində Diltey ruh haqqında elmləri təbiətşünaslığa, ümumiyyətlə, təbiət elmlərinə xas olan mütləq mücərrəd qanunauyğunluqların dar çərçivəsinə salınması əleyhinə çıxırdı. O, ruh haqqında elmlərin həqiqi təbiətinin aşkar edilməsinə və bununla «Dekart, Spinoza və Hobbsun geridə qalan elmlərə özlərinin riyaziyyat və təbiətşünaslıq əsasında inkişaf etdirdikləri metodlarını gətirdikləri vaxtdan böyük daha güclü «bacıların» cavan bacılarını sax-

ladıqları qandalları qırmağa yardım etməyə» çalışırdı. Diltey hermenevtikada məhz belə «qandallarını qırmış», fəlsəfə və tarix arasında duran müstəqil metod görür, onu psixologizmlə bağlı subyektivizmi və relyativizmi aradan qaldıra bilən, ictimai-tarixi gerçəkliyin dərkinə kömək edən idrak nəzəriyyəsi, mədəniyyəti, keçmiş mənəvi irsi öyrənən elmlərin məntiqi olan fəlsəfi elm kimi nəzərdən keçirirdi.

Zənnimizcə, Dilteyin hermenvtikasının bir çox nəzəri prinsipləri, o cümlədən anlamda hissə və tamın əlaqə-münasibəti, «həyat fəlsəfəsinin» bəzi məqamları, fərdi hiss və təfsir vasitəsilə, hissi şəriklik və kongenial anlam vasitəsilə, başqa sözlərlə, qavramanın subyektiv yolu ilə obyektiv bilik əldə edilməsinin mümkünlüyü haqqında fikirləri tədqiqat obyektinə daha diqqətli və həssas yanaşma kimi bu gün də əhəmiyyət kəsb edir.

## ƏDƏBİYYAT


1. Гадамер Х. Г. Истина и метод. М.: Прогресс, 1988.
2. Газали. Избавляющий от заблуждений (пер. с араб.). / Аверроэс (ибн Рушд). Опровержение опровержения. Киев: УЦИММ-Пресс, СПб.: Алетея, 1999.
3. Герменевтика: история и современность: (Критические очерки). М.: Мысль, 1985.
4. Дильтей В. Введение в науке о духе. // Зарубежная эстетика и теория литературы Х1Х-ХХ вв. Трактаты, статьи, эссэ. М., Изд.-во Московского университета, 1987.
5. Дильтей В. Категории жизни // «Вопросы философии», 1995, № 10.
6. Дильтей В. Литературные архивы и их значения для изучения истории философии. // «Вопросы философии», 1995, № 5.
7. Дильтей В. Описательная психология. М., 1924.
8. Кутлунин А.Г. Немецкая философия жизни. Критические очерки. Иркутск: Изд.-во Иркутского ун-та, 1986.
9. Орехов И. И. Критика «Философии жизни» Вильгельма Дильтея и его последователей: Автореферат канд. дисс.-ции М.: Мысль, 1965.
10. Плотников Н.С. Жизнь и история. Философское наследие Вильгельма Дильтея. // «Вопросы философии», 1995, № 5.


## ГЕРМЕНЕВТИКА ВИЛЬГЕЛЬМА ДИЛЬТЕЯ КАК МЕТОД ГУМАНИТАРНОЙ НАУКИ


**А.А.ГАДЖИЕВА**


### РЕЗЮМЕ


Статья посвящается анализу герменевтической концепции знаменитого немецкого философа и историка культуры В.Дильтея, оказавшего сильное влияние на развитие разных течений философии и исторической науки Запада в XX веке. Философия его основывается на дихотомии естественных и гуманитарных наук, так называемых наук о духе. Разделяя их, он впервые попытался определить метод гуманитарных наук, видя его в понимании, отличавшегося от метода естественных наук – объяснения. Таким образом, дильтеевская герменевтика задумана как посредник между историей и философией, как теория познания, логика и метод гуманитарных наук, изучающих духовное наследие прошлого. В статье прослежено и эволюция во взглядах мыслителя, отражавшие изменения ключевых понятий и терминологии в его герменевтической концепции и отмечается практическое значение некоторых положений его в современных гуманитарных исследованиях.

**VILHELM DILTHEY'S HERMENEUTICS AS A METHOD OF HUMANITARIAN SCIENCES**

**A.A.HAJIYEVA**

**SUMMARY**

The article is dedicated to the analysis of hermeneutics conception of the famous German philosopher and historian of culture V. Dilthey, exerted strong influence on development of different currents of philosophy and historical science of West in XX century. His philosophy is based on dichotomy of natural and humanitarian sciences, so-called the sciences about spirit. Dividing them he for the first time has tried to determine a method of humanitarian sciences as understanding, differing from a method of natural sciences - explanation. Thus, Dilthey's hermeneutics is conceived as an intermediary between history and philosophy, as a theory of knowledge, logic and method of the humanitarian sciences studying spiritual heritages of the past. In the article also is traced the evolution in outlooks of a thinker, reflecting changes of basic concepts and terminology in his hermeneutics conception and it is marked practical importance of some of his ideas in modern humanitarian researches.